İsmayıllıda ət satışı məntəqəsində keçirilmiş yoxlamaya dair məlumat

(26 sentyabr 2025)

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları İsmayıllı rayonu, Kürdmaşı kəndində fəaliyyət göstərən, fiziki şəxs Nuriyev Yusif Sovqat oğluna məxsus ət satışı məntəqəsində yoxlama keçirib. Baxış zamanı məntəqədə texniki normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib. Belə ki, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, döşəmə, tavan, divar səthlərinin təmirsiz olduğu və asan yuyulabilən, dezinfeksiyaya davamlı materialla üzlənmədiyi, müvafiq təmizlik işlərinin görülmədiyi, işçi heyətin xüsusi geyimdən istifadə etmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı nöqsanlar aradan qaldırılanadək ət satışı məntəqəsinin fəaliyyəti məhdudlaşdırılıb, fiziki şəxs barəsində inzibati tədbir görülüb.